# JURNALİSTİKA

UOT-070

## QƏZETİN İNFORMASİYA SİYASƏTİ JURNALİSTİN TİPOLOJİ XARAKTERİNİ FORMALAŞDIRAN FAKTOR KİMİ

**K.Q.NİFTƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***kenulnifteliyeva@gmail.com***

*Məqalədə müasir mətbuatın tipoloji sistemini şərtləndirən amillər, bu sırada xüsusi olaraq qəzetin informasiya siyasətinin rolu barədə araşdırma aparılır. Araşdırmada informasiya siyasətinin qəzetin tipoloji xarakterini formalaşdırdığı kimi bu tipoloji keyfiyyətin jurnalistin yaradıcılıq manerasına təsiri məsələsi geniş təhlil edilir. Belə bir fikir xüsusi vurğulanır ki, jurnalistin hadisələrə publisitik münasibəti bir tərəfdən onun öz fərdi dünyagörüşündən, faktın interpretasiyasına yanaşma tərzindən asılıdırsa, digər tərəfdən əməkdaşı olduğu qəzetin auditoriya faktorundan, bu auditoriyaya hesablanan informasiya siyasətindən doğur. Ümumiyyətlə, jurnalistin tipoloji xarakteristikasının Azərbaycan jurnalistika nəzəri təsərrüfatında ilk dəfə tədqiqata cəlb edildiyi, problemin elmi həlli bu məqalədə konkret həllini tapır. Məqalənin müddəaları müasir Azərbaycan mətbuatından gətirilən illüstrativ materiallarla müşayiət olunur.*

**Açar sözlər**: jurnalistika, informasiya siyasəti, tipoloji xarakteristika, jurnalistin tipologiyası, oxucu auditoriyası

Qəzetin və ümumiyyətlə mətbuatın, kütləvi informasiya vasitələrinin informasiya siyasəti ilə siyasi fəaliyyəti qarışdırmaq olmaz. Məlumdur ki, ilkin mənasında siyasət yunancanın «politika» sözündən olub, dövlət idarəçiliyi «sənəti» [13, 399] mənasını bildirir. Siyasət sözün müstəqim, birbaşa mənasında «ayrı-ayrı partiyaların, siniflərin, qrupların, dövlət strukturlarının maraqlarını ifadə edən bir anlayışdır» [13, 399]. Qəzetin informasiya siyasəti isə «hər hansı bir mətbuat orqanının öz fəaliyyətini istiqamətləndirən, prinsiplərində üstünlük verdiyi amilləri ehtiva edir» [14, 47]. Daha anlaşıqlı ifadə etsək, qəzetin informasiya siyasəti onun öz fəaliyyətində nəyə üstünlük verməsi, hansı auditoriyaya ünvanlanması, informasiyaya, xəbərə yanaşma tərzi, təhlili, analitik yazılarında daha çox nələrə, hansı mövzulara üstünlük verməsi və s. kimi amillərlə şərtlənir. Bütün bunlar bir tərəfdən qəzetin tipoloji xarakterini formalaşdırırsa, digər tərəfdən həmin qəzetdə fəaliyyət göstərən jurnalistin

tipoloji xarakterini, yaradıcılq üslbunu, prioritetlərini, hansı məsələyə necə münasibət göstərməsini müəyyənləşdirir. Beləliklə, qəzetin, mətbuat orqanının tipoloji faktı kimi, həmin orqanda çalışan jurnalistin də tipoloji xarakteri formalaşır, yaxud, həmin informasiya siyasətini özündə çoxdan formalaşdırmış jurnalist məhz iş yeri seçimində öz yaradıcılıq prinsiplərinə uyğun qəzet redaksiyası seçir.

Əlbəttə, heç kim inkar etmir ki, «jurnalist əməyi kompleks xarakter daşıyır» [12, 65]. Yəni jurnalist ixtisasına yiyələnən hər kəs siyasi, iqtisadi, sosial, mədəniyyət və s. mövzuların hamısında yaza bilmək tələbi ilə üzləşməli olacağını bilir. Lakin hər bir jurnalistin həm də həyatı, dünyanı görmə prinsipləri var və o, haçansa öz yaradıcılığında bu prinsipi seçərək özünün yalnız ona məxsus olan fəaliyyət sahəsini ortaya qoyur. Beləliklə, məsələn, siyasi hadislərdən yazmağı üstün tutan və hətta çox zaman siyasətçi kimi daranmağa girişən jurnalist partiya qəzetlərini, mədəniyyət məsələlərindən yazan jurnalist ən azı redaksiyadakı mədəniyyət şöbəsini, idmandan yazmağa üstünlük verən, bu sahədə formalaşmış jurnalist idman qəzetini seçir və s.

Müasir günlərimizdə Azərbaycan mətbuatında iqtidar, müxalifət, müstəqil istiqamətlərə ayrılan və cəmiyyətdə özünü göstərən bu bölünmələrə görə özünün informasiya siyasətini formalaşdıran qəzet bolluğu var. İqtidar düşərgəsində özünü göstərən «Xalq qəzeti», «Azərbaycan», «Respublika», «Səs», «İki sahil», «Yeni təfəkkür» və s., müxalif düşərgəyə mənsub «Azadlıq», «Yeni müsavat», «Bizim yol», «Nota» və s., müstəqil mətbuat nümunələrinə aid «525-ci qəzet», «Ayna», «Zerkalo», «Exo», «Üç nöqtə», «Ekspress» və s. tipli qəzetlərin hər bir qrupunun öz informasiya siyasəti mövcuddur. Bu qəzetlər qrupunda fəaliyyət göstərən jurnalist və redaksiya kollektivi hər hansı bir informasiyaya, xəbərə formalaşan informasiya siyasəti bucağından yanaşır. Məsələn, Azərbaycanın müasir inkişaf tempi iqtidar qəzetlərində yüksək pafosla təqdim olunduğu kimi, müxalifətyönlü qəzetlərdə mütləq nöqsanlı cəhətləri ilə, müstəqil qəzetlərdə isə mümkün qədər faktın olduğu kimi təqdimi ilə oxucuya çatdırılır. Qəzetlərin informasiyaya bu fərqli cəhətlərini nəzərdə tutan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəqil jurnalistikaya daha çox önəm verməyi vacib sayırdı [2, 495]. Prezident İlham Əliyevin belə bir fikri bizim bu tədqiqatımız üçün çox önəmlidir: «Azərbaycanda sözün əsl mənasında müstəqil mətbuata, KİV-lərə böyük ehtiyac vardır… Əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işində müstəqil KİV-lərin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır» [1, 52-53].

Müasir Azərbaycan media sisteminin bütün parametrlərini yaxından izləyən və həmişə jurnalistlərə faydalı məsləhətlərini verən, jurnalistikamızın fəaliyyətini tam obyektiv mövqedən qiymətləndirən Prezident Adminstrasiyası ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov iqtidar, müxalifət istiqamətli mətbuatın hadisələrə, faktlara münasibətini belə ümumiləşdirir: «Bəzi qəzetlər hökumətin gördüyü işi bütövlükdə pisləyir, bəziləri tamamilə tərifləyir. Vətəndaşlar özləri ortaq mövqe çıxarmalı olurlar. Əslində isə qəzetlər bütün məsələ-

ləri tam şəffaf, obyektiv təqdim etməlidirdər» [6]. Bu dəqiq fikirdəki birinci «bəziləri» müxalifət mətbuatını, ikinci «bəziləri» isə iqtidar mətbuatını nəzərdə tutur.

Bu günkü Azərbaycan demokratik dövlət rolunu ifadə edən mətbuat azadlığı şəraitində müxalifət, iqtidar qəzetlərinin varlığı heç kəsdə etiraz doğurmur. Ümummilli liderimiz H.Əliyevin belə bir fikri bu gün çox aktualdır ki, «mətbuat - ya müstəqil mətbuat, yaxud da müxalifət mətbuatı, təbiidir ki, cəmiyyətdə olan çatışmazlıqları, nöqsanları, hakimiyyətin fəaliyyətində olan qüsurları tənqid etməklə həm iqtidara, həm də cəmiyyətin bu nöqsanlardan təmizlənməsinə kömək etməlidir. Məsələn, mən bütün mətbuatın yox, müxalifət mətbuatının yox, dövlət mətbuatının da məhz bu yolla getməsini istəyirəm. Dövlət mətbuatı yalnız iqtidarı təbliğ etmək, iqtidarın qanunlarını, qərarlarını şərh etmək yolu ilə getməməlidir. O da bizim bütün işlərimizdə olan nöqsanları, qüsurları aşkara çıxarmalıdır, tənqid etməlidir» [3, 351].

Göründüyü kimi, H.Əliyev həm müxalifət, mətbuatını, həm də dövlət mətbuatını obyektiv olmağa, hər ikisində nöqsanları tənqid edən yazıların getməsinə çağırır. Lakin bu günün gerçəkliyi professor Əli Həsənovun müşahidəsində elə görünmür. Jurnalistlər şüurlu olaraq iqtidaryönlü, müxalifətyönlü yaradıcılıq istiqaməti seçir və istiqamət qəzetin tipoloji xarakterini necə formalaşdırırsa, jurnalistin tipini də eləcə müəyyən edir.

Azərbaycanın müasir ictimai xadimlərindən tutmuş adi oxucuya qədər hər kəs və H.Əliyevdən gətirdiyimiz sitatdan da göründüyü kimi, xüsusilə dövlətin istəyi də ən yüksək səviyyədə müstəqil mətbuatın tərəfindədir.

Belə bir suala cavab axtaraq: qəzetin informasiya siyasəti və jurnalistin tipoloji xarakterinin formalaşması praktikada özünü necə göstərir? İlk növbədə redaksiya kollektivində jurnalistin ixtisaslaşması ilə redaksiyanın bütövlükdə informasiya siyasətinin formalaşdırdığı jurnalisti bir-birindən fərqləndirmək vacibdir. «Jurnalistin qəzet redaksiyasında müxtəlif sahələr üzrə ixtisaslaşması adi haldır, vəzifənin tələb etdiyi bir haldır» [12, 67]. Hər bir normal fəaliyyət göstərən qəzet redaksiyasında bir neçə şöbə mövcuddur: ictimai-siyasi, sosial, mədəniyyət, idman, təhsil və s. Hər redaksiyada ayrı-ayrı jurnalistlər həmin şöbələrdə həmin sahələr üzrə ixtisaslaşırlar. Məsələn, iqtisadiyyat üzrə təcrübəsi olmayan jurnalist bu sahədən yazısında mütləq naşı görünəcək. Digər sahələr üzrə də həmçinin. Hətta, məsələn, beynəlxalq həyat şöbəsinin özündə belə jurnalistlər dünyanın ayrı-ayrı bölgələri üzrə də ixtisaslaşırlar. Biri Amerikanı, digəri Afrikanı, üçüncüsü Avropa ölkələrini işıqlandırır [12, 67-68].

«Redaksiyalarda jurnalistlər hətta janrlar üzrə də ixtisaslaşırlar. Jurnalistlərdən biri reportaj hazırlamağa, digəri oçerk, üçüncüsü korrespondensiyaya üstünlük verir» [12, 68].

İnformasiya siyasətini formalaşdırmış qəzet və onun jurnalistlərinin bu siyasətə uyğun ixtisaslaşması fərqlidir. Bu qəzetlərin öz tipologiyası var və həmin tipologiyanı informasiya siyasəti formalaşdırıb. Belə qəzetlərə jurnalist özü artıq formalaşıb gəlmişdir. Bazar münasibətləri şəraitində qəzetlər müxtə-

lif statuslara malikdir: dövlət qəzetləri, xüsusi-özəl - kommersiya qəzetləri. Belə statusda qəzetin maliyyəsi, texniki bazasının kimə mənsubluğu əsas rol oynayır. Əlbəttə, jurnalistikanın yardıcılıq prinsipləri bütün məqamlarda jurnalisti müstəqil olmağa çağırır. Lakin bəzən qəzetin informasiya siyasəti buna imkan vermir.

Atilla Girginin dediyi kimi, «jurnalist tərəfli olmaqdan qurtarmaq üçün bunun yollarını göstərən qaydaları bilməlidir» [11, 131]. Və aşağıdakıları bilmək tövsiyə olunur: «Mükəmməl, müasir peşə ixtisasına sahib olmaq, yetkin mədəniyyətə sahib olmaq, ölkənin problemlərini bilmək, beynəlxalq hadisələrdən xəbərdar olmaq, vicdan dəyərlərinə hörmət etmək, gerçəyi müdafiə etmək, hadisələrə öz duyğularnı qatmamaq, hadisəyə siyasi görüşlərlə yanaşmamaq, hadisəni kiçiltməmək, hadisəni böyütməmək, xüsusi məqsədə xidmət etməmək, hadisəni yozmamaq» [11, 131]. Bütün bunlar mətbuatda çalışan müstəqil düşüncəli, heç kimin tərəfini saxlamayan, hadisələrə obyektiv qiymət verən müstəqil jurnalistin peşə xarakterinə aiddir. Bu qaydalara əməl edən qəzetin informasiya siyasəti cəmiyyəti hadisələr barədə dəqiq, qərəzsiz məlumatlandırmaq üzərində qurulur və belə qəzetlərin jurnalistləri müstəqil, peşəkar jurnalistin tipoloji xarakterini əks etdirirlər.

İqtidaryönly qəzetin jurnalisti hakimiyyətin gördüyü işləri necə şişirdirsə, müxalif istiqamətli qəzetlər də hakimiyyətin nöqsanlarını şişirtmək yolu ilə gedir.

Müstəqil qəzetlərin informasiya siyasəti həm iqtidaryönly, həm də müxalifətyönlü istiqamətlərdən fərqlənir. İlk növbədə «525-ci qəzet»in informasiya siyasətinə diqqət edək. «525-ci qəzet» müstəqil mətbuat orqanıdır, hadisə və faktlara obyektiv, yalnız ictimai maraq bucağından baxmağı üstün tutur.

Yuxarıdakı araşdırma metodu ilə yanaşsaq bu qəzetin də bir nömrəsinin əsas başlıqlarına nəzər salmalı olacağıq: «Özəlləşmə paylarının istifadə müddəti başa çatıb», «Bəzi bölgələrdə kadr çatışmazlığı var», «Teleradio Şurası telekanallara müraciət etdi», «Müxalifətin yaratdığı İctimai Palatanın iclası keçirildi», «İctimai Palatadan narazılıqlar başladı», «Saxlama müddəti bitmiş ərzaq malları satışdan çıxarıldı», «Partiyalara maraq azalıb» [9] və s. Yaxud, başqa bir nömrədə: «Bu gün Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçiriləcək», «Ombudsmanın hesabatı qənaətbəxş hesab edildi», «Qərbin hər zaman ehtiyat variantı olub», «Mənim ruhlar şəhərim», «Xocalısız uşaqlar», «Xırda biznesin iri gəlirləri», «Ölülərin ölməzliyi…» [8]

Müstəqil qəzetlər xüsusilə xəbərə münasibətdə obyektiv olmağa cəhd göstərirlər. Bu mənada Azərbaycanda nəşr olunan «Şərq» qəzetini xüsusi misal gətirmək olar. Bu qəzetin bir nömrəsindən gətirəcəyimiz başlıqlar dediyimizi sübut edir: «Şəhidə məzar yeri satılmaz», «Həkim və müəllimlərin maaşı artırılacaq», «Hərbi hissədə güclü yanğın olub», «Elektrik altında tikilən evlər dağıdılır», «Xalq olimpiyadası yenidən işə salınır», «Evdə televizor partladı», «Sədərək» ticarət mərkəzində meyit tapılıb», «Gizir sevgilisini və özünü güllələyib», «Quba məzarlığına diqqət artırılıb», «Saatlı və Sabirabad sakinləri

mitinqə hazırlaşır» [7]… Yaxud, başqa bir nömrədə: «Benzin bahalaşmadı», «Barak Obama İlham Əliyevə məktub göndərib», «Ayaz Mütəllibovun taleyinə yeni parlament aydınlıq gətirəcək», «Seçki fiaskosu müsavatı çökdürdü», «Korrupsiyaya qarşı qanun var, amma işləmir» [6].

Göründüyü kimi, bu sərlövhələrin hamısı xəbər sərlövhələridir, obyektivliyi, tərəfsizliyi gözləyir. Bu tip xəbəri hazırlayan jurnalistlər müstəqildirlər, fəaliyyət göstərdikləri redaksiyanın informasiya siyasətinə uyğun olaraq özlərinin tipoloji yaradıcılıq xarakterini formalaşdırmışlar.

Bütün bu misallar və bu tipli qəzetlərdəki jurnalist tipləri sübut edir ki, peşənin daha mükəmməl olması üçün onun peşəkarlıq sirlərinə daha yaxından bələd olmaq çox vacibdir. Müasir dövrdə də belə bir sual aktualdır: «Jurnalist doğulurmu, yoxsa olurmu?» [10, 36] Jurnalist istedadla meydana gəlir, yoxsa peşəni öyrənir? Nəzəriyyəçilərin fikrincə, jurnalistə istedad da lazımdır, amma o, mütləq xüsusi təhsil almalıdır [10, 30]. Faktlar sübut edir ki, xüsusi jurnalist təhsili almış redaksiya əməkdaşları öz yazılarında dəqiq və qərəzsiz olurlar. «Kaspi» müstəqil qəzetinin müxbiri, jurnalististika fakültəsinin məzunu Təranə Məhərrəmovanın yazıları bu tip jurnalist yaradıcılığına misal ola bilər. Həmin jurnalistin adi bir kitab təqdimatından hazırladığı «Vətənpərvərlik – əsas silahımız» hesabatı vətəndaş-jurnalistin qələmindən çıxan əsər təsiri bağışlayır. Jurnalist tədbirdən qələmə aldığı hesabatda mövqeyindən asılı olmayaraq bütün çıxış edənlərə eyni münasibət bəsləyir. Yazıda bir çıxışçının fikirləri belə təqdim olunur: «Kaspi» qəzetinin rəhbəri, filologiya elmləri namizədi, tanınşımş publisist, şairə Sona Vəliyeva vurğulayıb ki, vətənpərvərlik mövzusu həyatımızın əsas qayəsinə çevrilərək bütün fəaliyyət sahələrimizin içindən işıqlı bir xətt kimi keçməlidir: «Nəzərə alsaq ki, biz taleyimizin sınaq mərhələsində olan bir mərhələni yaşayırıq, onda bu mövzu bizim üçün əsas amala çevrilməlidir». S.Vəliyeva diqqətə çatdırıb ki, bu gün gənclər təşkilatları QHT-lər, xarici qurumlarla əməkdaşlıq edən bütün təşkilatlar Azərbaycanın düşdüyü bəlaları məhz vətənpərvərlik mövqeyindən təqdim etməyi bacarmalıdır: «Vətənpərvərlik hissi bizim ordunun döyüşə hazırlıq prosesində xüsusi rol oynayır. Vətənpərvərlik bu gün əsas silahımız kimi cəsarəti ortaya qoymalıdır. Adını qızıl hərflərlə tariximizə yazan qəhrəmanlarımız sübut etdilər ki, vətənpərvərlikdən irəli gələn cəsarət öz sözünü deyir. Onda insanın şəxsi arzuları arxa plana keçir. Onun bütün amalları ictimailəşir. Vətən təşəbbüsü, vətəndaşlıq qeyrəti olan yerdə mütləq qəhrəmanlıq olacaq və onlar sabaha doğru öz arxasında qəhrəmanlar ordusunu yetişdirməyə xalqı sövq edə biləcək».

S.Vəliyeva vurğulayıb ki, qəhrəmanlıq həm də dövlət və dövlətçilik təfəkkürünün, Vətən və vətənçilik təfəkkürünün mövcudluğu deməkdir: «İctimai əhəmiyyət baxımından vətənərvərlik və qəhrəmanlıq həm də ilahi bir sirrdir. Mübariz İbrahimovun, Fərid Hüseynovun və digər şəhid qəhrəmanlarımızın ölümü sübut edir ki, qəhrəmanlıq bir məktəbdir. Bu gənclər 22-23 yaşlarında əbədi cavan qalmağın hikmətini bizə öyrətdilər» [4].

Beləliklə, araşdırmalar göstərir ki, hər bir qəzetin özünəməxsus informa-

siya siyasəti mövcuddur. Və bu qəzetlərin hər birinin informasiya siyasətinə uyğun fəaliyyət göstərən jurnalist-əməkdaşları var.

## ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Əliyev İ. İqtibaslar və təhlil. Bakı: Azərbaycan, 2006, ***328 s.***
2. Heydər Əliyev və mətbuat. 4 cilddə. II cild,Bakı: Nurlar, 2003, 495 s.
3. Heydər Əliyev və mətbuat. 4 cilddə. IV cild, Bakı: Nurlar., 2003, 640 s.
4. «Kaspi» qəzeti, Bakı, 11 fevral 2011
5. «Kaspi» qəzeti, Bakı, 7 sentyabr 2011
6. «Şərq» qəzeti, Bakı, 8 yanvar 2011
7. «Şərq» qəzeti, Bakı, 29 mart 2011
8. «525-ci qəzet», Bakı, 5 mart 2011
9. «525-ci qəzet», Bakı, 7 yanvar 2011

**Türkiyə türkcəsində**

10. Atilla Gilgin. Haber yazmak. İstanbul: «DER Yayınları», 2002,309 səh.
11. Atilla Girgin. Qazeteçiliyin Temel İlkeleri. İstanbul, «Der» yayınları, 2008, 411 səh.

**Rus dilində**

12. Грабельников А.А. Работа журналиста в прессе. М.: РИП-Холдинг, 2001, 274 с.
13. Словарь иностранных слов. М.: Русский язык, 1979, 399 с.
14. Типология периодической печати. М.: МГУ, 1995, 209 с.

**İnternet resursu**

15. www.chtoproisxodit. rentv.ru. 3 mart 2011


## ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА ГАЗЕТЫ КАК ФАКТОР, ФОРМИРУЮЩИЙ ТИПОЛОГИЧЕСКИЙ ХАРАКТЕР ЖУРНАЛИСТА


**К.Г.НИФТАЛИЕВА**


## РЕЗЮМЕ


В статье исследуются факторы, обуславливающие типологический характер прессы, особенно роль информационной политики в этом процессе. Говорится о том, что типологическое качество газеты влияет на творческую манеру журналиста на подобии того, как информационная политика формирует ее типологический характер. Особо подчеркивается то, что публицистическое отношение журналиста к описываемым событиям с одной стороны зависит от его личного мировоззрения, способа подхода к интерпретации факта, а с другой стороны вытекает из аудиторного фактора газеты, сотрудником которой он является, и из ее информационной политики, рассчитанной на данную аудиторию. Типологическая характеристика журналиста впервые привлечена к исследованию именно в предлагаемой статье, где нашло свое конкретное научное решение данной проблемы.

Выводы автора сопровождаются иллюстративными материалами, взятыми из современной азербайджанской печати.



**Ключевые слова**: журналистика, информационная политика, типологическая характеристика, типология журналиста, читательская аудитория

## INFORMATION POLICY OF NEWSPAPERS AS A FACTOR FORMALIZING THE TYPOLOGICAL CHARACTER OF THE JOURNALIST

**K.G.NIFTALIYEVA**

### SUMMARY

Factors terming the typological system of the modern press and the role of information system of newspaper, especially in this line, are investigated in the article. The information policy that formalizes the typological character of newspaper as well as the influence of this typological feature on the creative manner of the journalist are widely analyzed at investigation. Such an opinion was especially emphazised that, if the publicist relation of the journalist on affairs depends on his individual outlook and on the approach style to the interpretation of fact, it arises from the auditory factor of newspaper that he is a member on the one hand, and from the information policy accounting on this auditory on the other hand. In general, the first involvement of typological characters of the journalist in the investigation of the theoretical economy of Azerbaijan journalism and the scientific solution of the problem find the solution in the article. The provisions of the article are followed with the illustrative materials from the modern Azerbaijan press.

**Key words**: journalism, information policy, typological characteristic, typology of the journalist, auditory of reader.